

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 227 (21.637)

30 noyabr 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, İran-Azərbaycan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, İran-Azərbaycan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Mahmud Vaezinin Bakıda keçirilən XXII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları (“Bakutel-2016”) Sərgi və Konfransında iştirakının önəmini qeyd edib və səfərin ikitərəfli münasibətlərimizin müzakirəsi üçün də yaxşı fürsət yaratdığını bildirib. Prezident İlham Əliyev Azərbaycan ilə İran arasında əlaqələrin bütün sahələrdə çox uğurla inkişaf etməsindən məmnunluğunu ifadə edərək, bu işdə Hökumətlərarası Komissiyanın həmsədri kimi Mahmud Vaezinin rolunu xüsusi vurğulayıb.

İki ölkə Prezidenti arasında çox yaxşı qarşılıqlı etimadın yaranmasından məmnun olduqlarını deyən Mahmud Vaezi bildirib ki, əgər bu gün biz ölkələrimizin mənafeyinə uyğun lazım olan addımlar ata biliriksə, bu, hər iki Prezidentin dəstəyi sayəsində mümkün olub. Mahmud Vaezi İran-Azərbaycan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının gördüyü işlər barədə dövlətimizin başçısına məlumat verib.



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2016-cı ilin noyabr ayında bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

“Naxçıvan Muxtar Respublikası ərazisində iqtisadi fəaliyyət sahələri üzrə 2017-ci il üçün əmək miqrasiyası kvotasının təsdiq edilməsi haqqında” və “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Naxçıvan Musiqi Kollecinin Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyinə verilməsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 noyabr tarixli qərarları qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 8 noyabr tarixli qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nda, “Naxçıvan Muxtar Respublikasında gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları”nda və “Məktəbə hazırlığın təşkili Qaydaları”nda dəyişikliklər edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 noyabr tarixli qərarı ilə “Naxçıvan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsinin təmin edilməsi ilə bağlı bəzi normativ-hüquqi aktlar təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixində “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması ilə əlaqədar Nümunəvi Formalar”ın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 iyul tarixli 73 nömrəli qərarında dəyişikliklər edilməsi barədə”, “Yaşıllıqlara dəymiş ziyanın hesablanması və ödənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” və “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 31 oktyabr tarixli 89 nömrəli qərarı ilə təsdiq edilmiş “Gömrük brokerlərinin dövlət qeydiyyatının aparılması Qaydaları”nda dəyişikliklər edilməsi haqqında” qərarları qəbul edilmişdir.

Qəbul edilmiş normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Cari ilin payız mövsümündə 274,7 hektar sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilib



***Ana təbiətin əsas qoruyucu vasitələrindən biri yaşıllıqların mühafizəsi və artırılmasıdır. Yaşıllıqlar ekoloji mühitin tarazlığının saxlanılması ilə yanaşı, həm də sağlamlıq mənbəyi rolunu oynayır. Müdriklərimizin “Harada yaşıllıq varsa, orada həyat var” fikri də təbiətə qayğı göstərməyin vacib olduğunu təsdiqləyir.***

Müasir dövrdə yaşıllıqların artırılması yönündə atılan hər bir addım bizə sağlam mühitdə yaşamağa və təbiətin saysız-hesabsız nemətlərindən hərtərəfli istifadə etməyə şərait yaradır. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin əsas istiqamətlərindən biri də ətraf mühitin qorunması, ekoloji problemlərin həll edilməsi və əlverişli ekoloji mühitin yaradılmasından ibarətdir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən aldığımız məlumata görə, 2016-cı ilin payız mövsümündən indiyədək 274,7 hektar sahədə yaşıllaşdırma tədbirləri aparılıb. Həyata keçirilən tədbirlər nəticəsində 97 min 308 ədəd meyvə, 64 min 800 ədəd meşə ağacı, 3100 ədəd həmişəyaşıl ting, 17 min 200 üzüm kolu, 37 min 542 ədəd gül və bəzək kolları əkilib. Ümumilikdə, 90,4 hektar sahədə yeni meyvə bağları salınıb, 184,3 hektar sahədə isə əkin-bərpa işləri aparılıb.

Məlumatda qeyd olunur ki, yaşıllaşdırma işləri hava şəraitinə uyğun olaraq davam etdiriləcək.

***Əhalinin davamlı olaraq keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına yönəlmiş dövlət siyasəti hazırda həyata keçirilən işlərin əsas istiqamətlərindən biridir.***

## Kənd təsərrüfatında artım təmin edilib

Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın şaxələndirilməsi və kənd təsərrüfatının inkişafına yönəldilmiş mühüm dövlət proqramlarının uğurlu icrası məhz bu istiqamətdə görülmüş işlərin əsas qayəsini təşkil edir. Son statistik məlumatlara əsasən, muxtar respublika iqtisadiyyatının kənd təsərrüfatı sahəsində də müsbət dinamikanın qorunub saxlanıldığını demək olar.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumatda bildirilir ki, cari ilin yanvar-oktyabr aylarında muxtar respublikada 348 milyon 879 min 400 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunub. Qeyd olunan dövrdə muxtar respublikada istehsal olunmuş kənd təsərrüfatı məhsulunun ötən ilin müvafiq dövrü ilə müqayisəsinə gəldikdə 6,4 faiz artım olduğunu görməkdəyik. Qeyd edək ki, belə müqayisə muxtar respublikada istehsal olunmuş ümumi daxili məhsul üzrə 0,7 faiz təşkil edir. Təhlildən göründüyü kimi, muxtar respublika iqtisadiyyatı yeni iqtisadi şəraitə çevik uyğunlaşıb, prioritet sahələrdən biri olan kənd təsərrüfatında əldə olunan artım digər sahələrlə müqayisədə yüksək səviyyəyə çatıb.

Aqrar sektorda bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı, onların emalı, saxlanması və satışı davamlı olaraq diqqət tələb edən məsələlərdəndir. Muxtar respublikada daxili bazarın qorunması aqrar sahənin, o cümlədən heyvandarlığın da inkişafına şərait yaradır. Belə ki, son statistik məlumata əsasən, heyvandarlıq məhsulları istehsalında davamlı artım təmin olunub. Cari ilin yanvar-oktyabr aylarında muxtar respublika üzrə diri çəkidə 18,6 min ton ət, 75,2 min ton süd istehsal edilib ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı üzrə 1,6 faiz, süd istehsalı üzrə 1,3 faiz artım deməkdir.

**Xəbərlər şöbəsi**

## Bu qış mövsümündə də daxili bazarın tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödəniləcək

Hər il olduğu kimi, cari ilin ötən dövrü ərzində də Naxçıvan Muxtar Respublikasında aqrar sahənin intensiv inkişafını təmin edən strategiya uğurla həyata keçirilir. Kənd təsərrüfatının inkişafı nəzərdə tutan dövlət proqramlarının uğurlu icrası, bu sahəyə dövlət büdcəsindən subsidiyaların ayrılması təsərrüfatçılara stimul verib. Bu, muxtar respublikada əkinçiliyə, həmçinin kənd təsərrüfatının digər sahələrinə marağın, təşəbbüskarlığın artmasına, fərdi təsərrüfatçılığın inkişafına səbəb olub.

İstixanalarda bitkilər ekstremal hava şəraitindən, xəstəlik və ziyanvericilərdən effektli mühafizə edilə bildiyinə görə müxtəlif bölgələrdə kənd təsərrüfatı məhsullarının istehsalında istixanalardan geniş istifadə olunur.

Muxtar respublikada Naxçıvan şəhəri, Şərur, Babək, Culfa, Kəngərli, Ordubad rayonları da daxil olmaqla, ümumilikdə, 127 min 162 kvadratmetr sahədə 20 istixana təsərrüfatı fəaliyyət göstərir.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar istixana komplekslərində 109 min 816 kvadratmetr sahədə əkin aparılıb. Bu tədbirlər mərhələli olduğu üçün əkin hazırda da davam etdirilir. Ümumiyyətlə isə cari ilin ötən dövrü ərzində muxtar respublikadakı istixanalarda 125,9 ton məhsul yetişdirilərək satışa çıxarılıb.

Bütün bunların nəticəsidir ki, muxtar respublikada tələbatın əsas etibarilə yerli istehsal hesabına ödənilməsinə nail olunub, daxili bazarda məhsul bolluğu yaranıb.



İstehsalçının maraqlarını təmin edən dövlət qayğısının nəticəsində cari ilin ötən dövrü ərzində istixana komplekslərinin yaradılması məqsədilə 2 layihənin maliyyələşdirilməsinə 90 min 100 manat vəsait verilib. Ümumilikdə isə 2000-ci ildən 2016-cı ilin ötən dövründək Sahibkarlığa Kömək Fondu tərəfindən 23 layihənin maliyyələşdirilməsinə 4 milyon 488 min 600 manat dövlət maliyyə dəstəyi göstərilib.

Ekotester vasitəsilə məhsulun tərkibində olan radiasiya və nitratın (azot) müəyyən olunmuş normaya uyğunluğu mütəmadi olaraq nəzarətdə saxlanılır. “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin laboratoriyası tərəfindən istixana komplekslərində yetişdirilən məhsullardan 1463 halda səyyari laboratoriya təhlilləri aparılıb və göstəricilərin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyənləşdirilib.

Bu istixana kompleksləri növbəti qış mövsümündə də daxili bazarın tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan verəcək.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***Bu gün ən çox eşitdiyimiz terminlərdən biri informasiya əsri terminidir. Bəs informasiya əsri nədir? Bu əsr nə zaman başladı və bu əsri niyə məhz informasiya əsri adlandırırlar? Məlumdur ki, bəşər tarixi müxtəlif mərhələlərdən keçib və hər bir mərhələ insan üçün zəruri olan bir nəsnənin adı ilə adlandırılmışdır. O zaman ki cəmiyyətə lazım olan hər şeyi, ya da çox şeyi daş həll edib, o zamana Daş dövrü deyiblər. Çünki o zaman insanlar qidasını əldə etmək üçün daşdan müxtəlif formalarda istifadə etmişlər. Hətta savaşlar da daş vasitəsilə aparılmışdır. Sonrakı mərhələlərdə Mis dövrü, Tunc dövrü, Dəmir dövrü, Kapital dövrü və sair dövrlər bir-birini əvəzləmişdir. Tarixin bizə yaxın bir dönəmi atom əsri adlandırılmışdır. O dövrdə dünyanın taleyini, varlığı və yoxluğunu, Yer üzündə hansı dövlətin güclü olub-olmamasını atom tədqiqatları və atom silahları müəyyən etmişdir. XX əsrin sonlarından etibarən isə "atom əsri" anlayışını "informasiya əsri" anlayışı əvəzləmişdir. Bu heç də indi atom üzrə aparılan tədqiqatların ötən əsrdəkindən daha zəif olması anlamına gəlmir, bəlkə də, əksinə. Lakin əsrin adının dəyişməsi onunla bağlıdır ki, bu gün informasiya atomdan daha güclü bir silah hesab edilməkdədir. İndi güclü olan daha çox silaha sahib olan yox, daha çox informasiyaya, sözə sahib olan və informasiyanı, sözü idarə edən hesab olunur. Bəlkə elə buna görə də müqəddəs kitabımız olan "Qurani-Kərim"də "sizə nazil edilən ən gözəl (Sözə) tabe olun!" ("Zumərlər" surəsi 75-ci ayə) deyilmişdir.***

# Naxçıvan:
## informasiya blokadasından informasiya təhlükəsizliyinə




Bəli, sözün – informasiyanın əsri XX yüzilliyin sonlarından başlamış, buna uyğun olaraq informasiya resursları, informasiya müharibəsi, informasiya blokadası və sair anlayışlar meydana çıxmışdır.

SSRİ-nin dağıldığı, Azərbaycanın müstəqilliyini yenicə əldə etdiyi dövrdə ölkəmiz və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası təkcə silahlı müharibəyə deyil, həm də informasiya müharibəsinə cəlb edilmişdi. Naxçıvan Muxtar Respublikası təkcə ərazi blokadasına deyil, həm də informasiya blokadasına salınmışdı. Belə bir vəziyyətdə ermənilərin dünya ictimai rəyini çaşdırmaq üçün yaydıqları dezinformasiyalar haqlı ikən haqsız duruma düşməyimizlə nəticələnmişdi. O zaman informasiya resurslarının olmaması, siyasi idarəçilik kimi informasiya idarəçiliyinin də düzgün tənzimlənməməsinin çox acı nəticələri olmuşdur. Naxçıvan Muxtar Respublikasının ərazi blokadası da buranın informasiya blokadasını şərtləndirən əsas amillərdən biri idi. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən ümummilli lider Heydər Əliyev informasiya blokadasını maksimum şəkildə yarmağa çalışmış, Naxçıvan həqiqətlərinin dünyaya çatdırılması üçün müxtəlif media orqanları ilə əlaqələrin yaradılmasına xüsusi əhəmiyyət vermişdir. O dövrdə ümummilli lider Heydər Əliyevlə birlikdə Naxçıvanın qorunması uğrunda fəaliyyət göstərən insanların yaxşı xatırladıqları bir məqam var. Ulu öndər Naxçıvana gələn müxtəlif kütləvi informasiya vasitələrinin təmsilçilərinə maksimum şəkildə diqqət ayırmış və bəzən hətta gecənin ən gec saatlarında belə, iş otağını tərk etməyərək müsahibələr verməyə razılaşmışdı.

Bəli, nə qədər acı olsa da etiraf etməliyik ki, o zaman biz səsimizi nəinki dünyaya, heç ölkə paytaxtı olan Bakıya çatdırmaq üçün yetərli informasiya resurslarına malik deyildik. Naxçıvanda fəaliyyət göstərən Naxçıvan televiziyası və "Şərq qapısı" qəzetinin əhatə dairəsi isə elə muxtar respublikanın ərazisi ilə sərhədlənirdi.

1996-cı ildən sonra Naxçıvanda başlayan inkişaf və tərəqqi prosesləri kütləvi informasiya vasitələrinin fəaliyyətinə də öz təsirini göstərmişdir. Lakin bu dəyişikliklər hələ informasiya blokadasının tam yarılmasına imkan vermirdi. Dünya isə dəyişir, dünyadakı informasiya axını sürətini artırırdı. Artıq informasiyanın yeni ötürülmə vasitəsi olan "internet" deyilən anlayış meydana çıxmışdı və bizim üçün o, nəisə "qəribə", "fövqəltəbii" bir qüvvə idi. Naxçıvan Muxtar Respublikası bu fövqəltəbiiliklə ilk dəfə 1999-cu ildə tanış olmuşdur. O zaman yalnız Naxçıvan Kompüter Mərkəzində 8 abunəçi ilə internetə qoşulma imkanı əldə edilmişdir. Lakin qlobal informasiya axınına bu şəkildə qoşulmaq okeanda bir damla misalında idi. Muxtar respublika əhalisinin Beynəlxalq Qlobal İnformasiya və Telekommunikasiya Şəbəkəsinə qoşulmasını təmin etmək məqsədilə 10 may 2003-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən Naxçıvanda yeni internet provayder xidməti – *nakhchivan.az* abunəçilərin istifadəsinə verilmişdir. Bununla da, Naxçıvanla Azərbaycan, eləcə də dünya dövlətləri arasında olan informasiya blokadasını yarmaq üçün ilkin imkan yaranmışdır. 2005-ci ilin iyun ayında Naxçıvan Trans-Asiya-Avropa fiber-optik magistral xəttinə qoşulmaqla informasiyanın daha sürətli axınını təmin etmək imkanı əldə etmişdir. 2006-cı ildən *nakhinternet.az* olaraq fəaliyyətinə davam edən xidmətin genişləndirilməsi istiqamətində bir sıra işlər həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 aprel 2010-cu il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzi yaradılmışdır.

Bütün bunlar isə hələlik yalnız bizə istədiyimiz informasiyanı almaq imkanı verirdi. İnformasiya blokadasının yarılması üçün isə informasiyanı almaq yox, onu ötürmək və idarə etmək lazım idi.

Naxçıvanda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin internetə çıxışı məntiqli və keyfiyyətli şəkildə təmin edilməli idi. Çünki ümumdünya informasiya məkanı artıq informasiyanın kəmiyyətinin deyil, keyfiyyətinin axını mərhələsinə gəlib çatmışdı.

Naxçıvanın kütləvi informasiya vasitələri içərisində ilk dəfə olaraq internet üzərindən səsini ümumdünya informasiya məkanına çatdıran orqan "Naxçıvanın səsi" radiosu olmuşdur. Radio 2006-cı il yanvar ayının 17-dən etibarən *www.nakhchivan.az* (Naxçıvan Muxtar Respublikasının rəsmi portalı) üzərindən yayıma başlamışdır. Bununla da, muxtar respublikada informasiya blokadasının yarılması istiqamətində daha bir mühüm addım atılmışdır. Artıq internetlə dünya arenasına çıxan "Naxçıvanın səsi" radiosu vasitəsilə dünyanın istənilən nöqtəsindən hər kəs Naxçıvan Muxtar Respublikası haqqında məlumat ala bilərdi. Lakin audio informasiya ötürücüsü olan radionun verdiyi informasiyaların Qlobal İnformasiya Şəbəkəsində qalıcılığı müzakirə mövzusu idi. Yəni dinləyici, sadəcə olaraq, yayım zamanı verilən informasiyanı ala bilirdi. Bir müddət keçdikdən sonra isə onun bu informasiyanı əldə etməsi mümkün deyildi.







Naxçıvanda gedən inkişaf prosesləri, gələcəyə hesablanmış məqsədyönlü addımlar isə bəzi qüvvələr tərəfindən qısqanclıqla qarşılanırdı. Müxtəlif qüvvələrin əlində alətə çevrilmiş media vasitələrinin xüsusilə internet üzərindən Naxçıvana dezinformasiyalarla dolu hücumları yaxın keçmişimizin reallıqlarıdır. Ümumdünya İnternet Şəbəkəsinin inkişafı isə artıq sosial şəbəkələri insanların həyatının ayrılmaz tərkib hissəsinə çevirir, yayılan informasiyaların sürətini daha da artırırdı. Ardıcıl olaraq ötürülən dezinformasiyalar isə cəmiyyətdə çaşqınlıq yaradırdı. Belə bir vəziyyətdə Naxçıvanın müxtəlif ziyalıları, gəncləri, media təmsilçiləri bu yalan informasiyaları təkzib yolunu sosial şəbəkələrdə çoxminli qrupların yaradılmasında görür, ölkə paytaxtında və yaxın xarici ölkələrdə müxtəlif media qurumları ilə əlaqələr yaradılır və doğru informasiyanın cəmiyyətə çatdırılması yolunda addımlar atılırdı. Bu gün sosial şəbəkələrdə Naxçıvana aid ən çoxsaylı üzvlərə malik olan qruplar ("Naxçıvan gəncləri", "Naxçıvan həqiqətləri" və sair) məhz belə bir vəziyyətdə meydana çıxmışdı. Bu yerdə, təbii ki, biz paytaxtda fəaliyyət göstərən televiziya və qəzetlərin Naxçıvandakı bölgə müxbir postlarının da rolunu unutmamalıyıq.

95 yaşlı "Şərq qapısı" qəzeti Naxçıvanın əsas mətbu orqanı olmaqla daim muxtar respublika həyatının müxtəlif istiqamətlərini işıqlandırmış və XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanın haqq səsinin eşidildiyi əsas tribunaya çevrilmişdir. Naxçıvanın informasiya blokadasının aradan qaldırılması istiqamətində atılmış addımlardan biri də məhz "Şərq qapısı" qəzetinin internet saytının istifadəyə verilməsidir. 1993-cü ildən sonra öz inkişafının yeni mərhələsinə qədəm qoyan "Şərq qapısı"nın beynəlxalq informasiya məkanına çıxış əldə etməsi uzun illər ərzində qəzetin fəaliyyətində kəmiyyət və keyfiyyət dəyişikliklərinə xidmət edən addımların atılmasından sonra mümkün olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamından sonra "Şərq qapısı" qəzetinin maddi-texniki bazası gücləndirilmiş, bu qocaman mətbuat orqanının normal fəaliyyəti üçün hərtərəfli iş şəraiti yaradılmışdır. 2010-cu il iyulun 22-də – milli mətbuatımızın yaranmasının 135-ci ildönümü günündə qəzet redaksiyası üçün yeni bina istifadəyə verilmiş, qəzetin rəngli nəşrinə başlanılmışdır. 2012-ci ilin 17 dekabrında isə *www.serqqapisi.az* internet ünvanı ilə "Şərq qapısı" qəzeti təkcə ölkə hüdudlarında deyil, bütün dünyadakı oxucuların görüşünə gəlmişdir. Naxçıvandan dünyaya rəsmi təsdiqlənmiş, dəqiq informasiya ötürən "Şərq qapısı" qəzetinin fəaliyyəti nəticəsində Naxçıvanla bağlı yayılan heç bir əsası olmayan informasiyaların qarşısı alınmış, Naxçıvan həqiqətlərinin geniş ictimaiyyətə çatdırılması üçün şərait yaranmışdır. Əgər "Naxçıvanın səsi" ilə yalnız onlayn rejimdə audio informasiya almaq mümkün idisə, "Şərq qapısı"nın saytı vasitəsilə oxucu Naxçıvanla bağlı istənilən informasiyanı istənilən zamanda almaq imkanı əldə etmiş, qlobal informasiya məkanına çıxış bu mətbu orqanın üzərinə düşən məsuliyyəti daha da artırmış və informasiyanın keyfiyyət həddinin hüdudsuzluğu prinsipi kollektivi yaradıcı axtarışlara sövq etmişdir.

Rəsmi kütləvi informasiya vasitələrinin Qlobal İnformasiya Məkanına çıxışı ilə yanaşı, qeyri-rəsmi və özəl media quruluşlarının yaranması zərurəti isə 2015-ci il iyun ayının 15-dən fəaliyyətə başlayan, Naxçıvanda bir qrup tədqiqatçı və jurnalistlərin tribunasına çevrilən "Naxçıvan Xəbərləri" informasiya saytının *(naxcivanxeberleri.com)* meydana çıxması ilə nəticələnmişdir.

Təbii ki, dünyada sürətli internetin təmin olunduğu bir zamanda bəzən insanlar üçün yüz dəfə eşidib, oxumaqdansa, bir dəfə görmək prinsipi keçərli olur. Başqa sözlə desək, muxtar respublikada gedən inkişaf və tərəqqinin dünyaya görüntülü çatdırılması çox vacib istiqamətlərdəndir. Naxçıvan mediasının əsas sütunlarından biri olan Naxçıvan Dövlət Televiziyası və Radiosunun ötən illər ərzində maddi-texniki bazasının gücləndirilməsi, peşəkar jurnalist kadrların yetişdirilməsi və işə cəlbi istiqamətində də davamlı və məqsədyönlü işlər həyata keçirilmiş, televiziyanın yüksəkkeyfiyyətli yayımına nail olunmuşdur. 2016-cı il oktyabr ayının 17-si isə həm televiziyanın, həm də, ümumilikdə, muxtar respublikamızın tarixinə əlamətdar gün kimi daxil olmuşdur. Naxçıvan televiziyasının ən yüksək səviyyədə, peşəkar prinsiplərlə hazırlanmış internet saytı istifadəyə verilmiş və internet üzərindən televiziyanın yayımına başlanılmışdır.

Bu isə Naxçıvanın informasiya blokadasının yarılması yolunda ən böyük addım olmuş və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən belə qiymətləndirilmişdir: ***"Naxçıvan televiziyasının internet üzərindən yayıma başlaması dövlət müstəqilliyinin bəhrəsidir. Eyni zamanda bu, 25 ildən artıq blokada şəraitində yaşayan muxtar respublikada informasiya blokadasının yarılması deməkdir".***

Bununla da, muxtar respublika miqyaslı rəsmi media orqanlarının internet üzərindən yayımının tam təmin edilməsi başa çatdırılmışdır. Kütləvi informasiya vasitələrinin inkişafına göstərilən dövlət dəstəyi, eləcə də mətbuatın inkişafı üçün azad fəaliyyət imkanları muxtar respublikanın media üfüqlərində yeni-yeni informasiya vasitələrinin görünməsinə və görünəcəyinə təminat verir. Elə bu günlərdə bir qrup gəncin təşəbbüsü ilə fəaliyyətə başlayan yeni informasiya portalı – *mediaktiv.az* da bu sıradadır.

Əvvəldə qeyd etdiyimiz kimi informasiyanın keyfiyyət həddi hüdudsuzdur. Muxtar respublikanın kütləvi informasiya vasitələrinin dünəndən bu günə keçdiyi yol bunu bir daha sübut edir. Deməli, muxtar respublikanın informasiya məkanında informasiya vasitələrinin kəmiyyəti və keyfiyyəti də artmalıdır... Yalnız ana dilimizdə deyil, həm də xarici dillərdə.

Bu gün informasiyanın daha keyfiyyətli əldə edilməsi və ötürülməsi üçün sürətli internetin olması, onun mobilliyi əsas şərtlərdən biridir. Naxçıvanda bu istiqamətdə də mühüm tədbirlər həyata keçirilmişdir. Azərbaycanın mobil rabitə bazarına 4-cü nəsil rabitə operatoru kimi daxil olan "Naxtel" bu gün həm də insanların internetə sürətli və keyfiyyətli çıxışını təmin edir. Hazırda 98 baza stansiyası vasitəsilə Naxçıvan Muxtar Respublikasının bütün yaşayış məntəqələrini əhatə edən yeni əsrin rabitə operatoru adlandıra biləcəyimiz "Naxtel"in hər bir baza stansiyası ilə Mərkəzi İdarəetmə Sistemi arasında fiber-optik kabel xətləri çəkilmiş və saniyədə 1Gb informasiya daşıya bilən avadanlıqlar qurulmuşdur.

Naxçıvanın informasiya blokadasının yarılmasında son illər muxtar respublikamıza gələn xarici jurnalistlərin hazırladıqları yazıların dünya mediasında dərc olunması da mühüm rol oynamışdır.

*Beləliklə, ərazisinin 83 faizində genişzolaqlı internet olan Naxçıvan Muxtar Respublikası informasiya blokadasını tam yara bilmişdir. Naxçıvan informasiya blokadasından informasiya təhlükəsizliyinin etibarlı qorunduğu bir muxtar respublikaya çevrilmişdir. İndi qalır bu imkanlardan Naxçıvanın tarixinin, mədəniyyətinin, turizm potensialının təbliği üçün səmərəli istifadə etmək.*

✍ **Elnur KƏLBİZADƏ**

***Yazı "Naxçıvan: dünən və bu gün" yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür***

*Axtarışlar, tapıntılar*

# Fotoqraf Dmitri Yermakovun yaradıcılığında Naxçıvan mövzusu



***XX əsrin əvvəllərindən başlayaraq Tiflis Qafqazın inzibati və mədəni paytaxtı olmuşdur. Təxminən, 1828-ci ildən Tiflisin ədəbi-ictimai mühiti Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın milli mədəniyyətinin inkişafında böyük rol oynamışdır. Qeyd edək ki, 1840-cı ildən başlayaraq "Kavkaz", "Novoye obozreniye", "Tiflisskoye vedomosti", "Zakavkazskiy vestnik" qəzetlərində Naxçıvan tarixi və mədəniyyəti, həmçinin folklor nümunələri haqqında maraqlı məqalələr çap olunmuşdur. Başqa sözlə, naxçıvanlı müəlliflər ancaq Tiflis mühiti vasitəsilə Rusiyada və Avropada yazdıqlarını təbliğ edə bilirdilər.***

Ədalət naminə deyək ki, Tiflisdə yaşayan xalqların bütün nümayəndələri birlikdə çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparmışlar.

Gürcüstanın Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasının, Tiflis Aleksandr Müəllimlər İnstitutunun və Nucabə Qızlar Seminariyasının şöbələrində naxçıvanlı gənclər təhsil almış və Azərbaycanda maarifin, həmçinin mədəniyyətin inkişafında əvəzsiz xidmətlər göstərmişlər. Bu haqda Azərbaycanın tədqiqatçı alimləri xeyli kitablar və monoqrafiyalar yazmışlar.

Amma Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın Gürcüstanla, onun mərkəzi olan Tiflis mühiti ilə əlaqələri çox az tədqiq edilmişdir.

Hələ Naxçıvan xanlığı dövründən başlayaraq Gürcüstanla Naxçıvanın bir çox sahədə, o cümlədən hərbi sahədə də sıx əməkdaşlığı olub. Bu tarixi mövzu çoxəhatəli və genişdir. Bunu bir-iki yazıya sığışdırmaq olduqca müşkül məsələdir. Ancaq Gürcüstanın arxivlərində XVIII əsrin ortalarından başlayaraq XX əsrin əvvəllərinə aid qiymətli arxiv sənədləri vardır.

Qeyd edək ki, Naxçıvan tarixi, həmçinin Naxçıvanın görkəmli şəxsiyyətləri ilə bağlı sənədlərə Tbilisinin muzey fondlarında, sərgilərində rast gəlinir. Vaxtında araşdırmalar aparılmadığından indi bəzən obyektiv olaraq çətinliklərlə də rastlaşmalı oluruq. Bu, əsasən, Naxçıvandan aparılan döyüş bayraqlarına, fotoşəkillərə və digər eksponatlara aiddir. Çünki bu fotoşəkillərin xeyli hissəsi Kəngərli xanlarına və onların hərbçi varislərinə aiddir. Bir vaxtlar Qafqaz Hərbi Muzeyində olan həmin fotoşəkillər 1917-ci ildən sonra Tiflisdəki muzeylərə göndərilib. Fotoşəkillərə aid qeydlər silindiyindən onların kimə aidliyi çox ciddi çətinlik yaradır. Belə bir vəziyyətdən isə Azərbaycanı sevməyənlər sui-istifadə edirlər. Buna görə də Tbilisidə kompleks axtarışları dərinləşdiririk. Naxçıvan mühiti və ziyalıları, hərbçiləri ilə bağlı fotoşəkillərin əksəriyyəti məşhur fotoqraf Dmitri İvanoviç Yermakov tərəfindən çəkilib. Qeyd edək ki, onun yaradıcılıq kolleksiyası çox zəngindir. Ondan 127 fotoalbom (bu albomda 22660 fotoşəkil var) və 15556 şüşə neqativlər Qafqaz xalqlarına yadigar qalıb. Bu haqda bir az sonra.

İstedadlı fotoqraf Dmitri İvanoviç Yermakov 1845-ci ildə Tiflisdə (bir sıra sənədlərdə Naxçıvanda doğulduğu yazılıb) anadan olub.

Rus fotoqrafı, şərqşünası və etnoqrafı, səyyahı Dmitri Yermakovun atası Gürcüstanın məşhur memarı Lodoviko Kambiacodur. Sənədlərin dili ilə desək, italyandır.

Gürcüstana gəlməzdən əvvəl Odessa şəhərinin memarı olub. Odessa şəhərində onun memarlığı ilə tikilən saray bu gün də göz oxşamaqdadır.

1845-ci ildə Qafqaza canişin təyin edilən knyaz M.S.Vorontsov-Daşkov Odessanın məşhur memarlarını və digər mütəxəssisləri özü ilə bərabər Tiflisə gətirir. O, Novorossiyskin və Bessarabiyanın general-qubernatoru işlədiyi vaxtlar ətrafına bacarıqlı mütəxəssislər toplamışdı. Dmitrinin anası Avstriyagürcü əsilli qadın idi. (Bəzi mənbələrdə isə molokan qızı olduğu yazılıb).

Sonralar o, həyat yoldaşından ayrılaraq Rusiyaya köçüb və orada Yermakov familiyalı şəxslə ailə qurub. Beləcə, Dmitri Kambiaconun familiyası olub Yermakov, Dmitri atalığının adını və familiyasını daşıyıb. O, hərbi təhsil alıb.

1860-cı ildə 24 yaşlı Dmitri Tiflisə gəlib və fotoqraflığa başlayıb. 1870-ci ildə o, Naxçıvana gələrək oradan da İrana səyahət edib. İranda uzun müddət yaşayan fotoqraf çoxlu sayda etnoqrafik fotoşəkillər çəkib. İran şahı onun çəkdiyi fotoşəkilləri bəyəndiyindən ona "Əlahəzrət İran şahının saray fotoqrafı" adını verib. Müəyyən fasilələrlə fotoqraf 1870-ci ildən etibarən 1915-ci ilədək İranda yaşayıb fəaliyyət göstərib.

Professional kimi 1866-cı ildən fotoqraflığa başlayan Yermakov tez bir zamanda Rusiya Coğrafiya Cəmiyyətinin də rəğbətini qazanır.

Bir yerdə çox qalmağı xoşlamayan fotoqraf İranda, Türkiyədə, Krımın cənub sahillərində, Zakaspiyski vilayətində də səyahətlərdə olub.

Əla fotoşəkillər çəkdiyinə görə 1874-cü ildə ona Fransa Fotoqrafiya Cəmiyyətinin mükafatı verilib. Yermakov 1877-1878-ci illərdə rus qoşunlarının tərkibində Qafqaz cəbhəsinə ezam edilir. Həmişə hərbi yürüşlərdə olan fotoqraf Bəyazid qalası ətrafında gedən döyüşlərdə də maraqlı fotoşəkillər çəkib. Əldə etdiyimiz məlumata görə, İsmayıl xanla oğlu Aman xanın da fotoşəkillərini çəkib. Həmin müharibələrdə vuruşan Kəngərli süvarilərinin də fotoşəkilləri Yermakova məxsusdur.

1880-ci ildən atla və piyada səyahət edən Dmitri yürüşlərdə fotoaparat çiynində iştirak edib. Çoxlu ekspedisiyalarda və arxeoloji qazıntılarda iştirak edən Yermakov Moskva Arxeoloji Cəmiyyətinin fəxri üzvü olub. Yaxşı, maraqlı fotoşəkillər çəkdiyinə görə İranın, Türkiyənin, İtaliyanın və Moskva antropoloji (1878) sərgilərinin mükafatlarını alıb. Yermakov həm də yaxşı poliqlot idi. 10-a qədər dil bilirdi. Bir çox vacib ekspedisiyaların yürüşlərində iştirak edən Yermakov bu gün də öz əhəmiyyətini itirməyən fotoşəkillərin yaradıcısı olub. Dmitri Yermakov 1877-1878-ci illərdə hərbi müxbir olub və 1880-ci ildə özünün şəxsi fotostudiyasını açıb.

16 dekabr 1881-ci ildə Rusiya Arxeoloji Cəmiyyətinin əməkdaş üzvü seçilən D.Yermakov bir çox məşhur fotoşəkillərin də sahibidir. Onun çəkdiyi fotoşəkillər 1882-ci ildə Moskvada təşkil olunmuş ümumrusiya sərgisində bürünc medal alıb. Tiflisdən başqa, onun Kislovodsk şəhərində də fotoatelyesi olub.

Rusiyanın və xarici ölkələrin 36 mükafatını alan Dmitri Yermakovun yazımızın əvvəlində qeyd etdiyimiz kimi, tarixi əhəmiyyətli zəngin kolleksiyası var idi.

1918-ci ildə həmin qiymətli kolleksiya Tiflis Universiteti və Gürcüstan Tarixi və Etnoqrafiyası Cəmiyyəti tərəfindən əldə edilib. Onun fotokolleksiyasının əsas hissəsi Tiflisdə saxlanılır. Bir hissəsi Qaraçay-Çərkəz Respublikasının Zelençuk rayonunun Bukovo və Nijni Arxız qəsəbələrində fəaliyyət göstərən memarlıq-arxeoloji muzeylərində saxlanılır. Bundan başqa, fotoqrafın kolleksiyasına aid fotoşəkillər Moskvada, Sankt-Peterburqda, Krasnodarda və digər şəhərlərdə fəaliyyət göstərən muzeylərdə nümayiş etdirilir.

Dmitri Yermakov dəfələrlə Naxçıvana gəlib və keçmiş cəbhə dostları general İsmayıl xanın, general-mayor II Kalbalı xanın və onun oğlanlarının – Rəhim xanın, Cəfərqulu xanın qonağı olub. Və onların, həmçinin ailə üzvlərinin fotoşəkillərini çəkib. Hətta Naxçıvanın bir çox ziyalılarının da fotoşəkillərinin Yermakova məxsusluğu fotoqrafın imzasından və fotonun arxasındakı ünvandan bilinir. Qeyd edək ki, Əşrəf ağanın və onun oğlu Əmirsuvar bəyin şəxsən tanıyıb dostluq etdikləri Yermakov onların da fotoşəkillərini çəkib. Həmin fotoşəkillər onların ailə arxivlərində qorunur. Dmitri Yermakovun çəkdiyi fotoşəkillərdən əlavə olaraq ikisinin kimliyi tapıla bildi. Onların hər ikisi Milli Azərbaycan Tarixi Muzeyində "Naxçıvanlı qadınlar" kimi nümayiş etdirilir. Onlardan biri Cəfərqulu xan Naxçıvanskinin ikinci həyat yoldaşı Bəyim Kəngərlinin fotoşəklidir. Bəyim Kəngərlinin fotosunu Cəmşid xan Naxçıvanskinin dayısı Həsən xan İrəvanskinin Türkiyədə saxlanılan şəxsi albomunun köməkliyi ilə dəqiqləşdirdik.

Axtarışlar zamanı məlum oldu ki, 1969-cu ildən sonra şairə Qonçabəyimin fotosu kimi təqdim edilən fotonun da müəllifi D.Yermakovdur. Foto Naxçıvan şəhərində əsilzadə ailəsində çəkilib. Tarix də fotoqraf tərəfindən göstərilib: 1890. Deməli, bu fotoşəkil Nikolozun 1844-cü ildə məktubunda yazdığı 18 yaşlı Qonçabəyimə məxsus ola bilməz. Gürcü romantik şairi Nikoloz Barataşvilinin məktubunda təsvir edilən şairə Qonçabəyimin fotoşəklini tapmalıyıq.

Qaldı D.Yermakovun çəkdiyi fotoşəklə, yəqin ki, axtarışlar onun da kimliyini üzə çıxaracaq. Bu işdə D.Yermakovun kolleksiyası və N.Barataşvilinin evmuzeyi kömək edə bilər.

*Fotoqraf Dmitri Yermakov 10 noyabr (köhnə təqvimlə 28 oktyabr) 1913-cü il tarixdə Tiflisdə vəfat edib. Çox mənalı bir işə ömrünü sərf edən şərqşünas, poliqlot, hərbi topoqraf və fotoqraf D.Yermakovun kolleksiyası Qafqaz xalqları üçün əvəzsiz bir tarixi xəzinədir.*

**Musa QULİYEV**
***tarix üzrə fəlsəfə doktoru***

***Naxçıvan Dövlət Universitetində 2016-2017-ci tədris ilinin birinci semestrinə aid pedaqoji təcrübənin yekun konfransı keçirilib.***

# Pedaqoji təcrübənin yekun konfransı keçirilib



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov konfransda bildirib ki, pedaqoji təcrübə təhsil müddətində qazanılan nəzəri biliklərin təcrübədə möhkəmləndirilməsi, müəyyən peşə vərdişlərinə yiyələnmək məqsədi daşıyır.

Təcrübə dövründə metodistlərin, müəllimlərin və tələbələrin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edən rektor universitetdə ixtisaslı pedaqoji kadr hazırlığı prosesində ali və orta məktəblərin müntəzəm əməkdaşlığına, nəzəri bilik və təcrübə mübadiləsinə xüsusi əhəmiyyət verildiyini nəzərə çatdırıb.

Universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid "Pedaqoji təcrübə dövründə görülmüş işlər" adlı məruzəsində 2016-2017-ci tədris ilində Naxçıvan Dövlət Universitetində pedaqoji təcrübələrin tədris planına, Təhsil Nazirliyinin təsdiqlədiyi təlimatlara, proqramlara uyğun şəkildə aparıldığını, pedaqoji ixtisaslarda təhsil alan tələbələrin bu müddətdə ali məktəbin əməkdaşlarının, eləcə də tam orta məktəblərin qabaqcıl müəllimlərinin rəhbərliyi altında nəzəri biliklərini məktəblərdə keçirilən təcrübələrdə layiqincə tətbiq etdiklərini bildirib. Qeyd olunub ki, 2016-2017-ci tədris ilinin birinci semestrində universitetin əyani şöbəsinin 6 fakültə üzrə 17 ixtisasda təhsil alan 403 tələbəsi Naxçıvan şəhərindəki 15 tam orta məktəbdə və Babək rayonunun Şıxmahmud, Kərimbəyli kənd tam orta məktəblərində pedaqoji təcrübədə olub.

Təhsil Nazirliyinin əməkdaşı Mahir Babayev muxtar respublikada təhsilin inkişafına göstərilən qayğıdan, yüksəkkeyfiyyətli pedaqoji kadr hazırlığı işindən danışıb, tələbələrə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Konfransda Ümumi tarix kafedrasının dosenti İsmayıl Zeynalov "Metodistlərin təcrübəçi tələbələrlə apardıqları işlər və hazırlanmış sənədlər", Pedaqogika və psixologiya kafedrasının müdiri, dosent Vahid Rzayev "Təcrübə dövründə pedaqogika və psixologiya üzrə görülmüş işlər" mövzularında məruzələr ediblər.

Konfransda 2016-2017-ci tədris ilinin birinci semestrində keçirilən pedaqoji təcrübəni əks etdirən slaydlar nümayiş olunub.

**Nərmin CABBAROVA**

# Azərbaycan musiqi mədəniyyətinin inkişafında gənclərin rolu

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Şərur şəhərindəki Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbində bu mövzuda dəyirmi masa keçirilib.***

Muxtar respublikanın mədəniyyət müəssisələrinin, yaradıcı təşkilatlarının nümayəndələrinin iştirak etdikləri tədbiri giriş sözü ilə nazirlik aparatının şöbə müdiri Həsən Kərimov açıb.

Qeyd olunub ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmişə gənc bəstəkarlara, musiqiçilərə və müğənnilərə xüsusi diqqət və qayğı göstərərək deyirdi ki, istedadlara yol açmaq, onları dəstəkləmək lazımdır. Çünki dahi Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Rəşid Behbudov, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev, Arif Məlikov kimi sənətkarların əldə etdikləri yüksək nailiyyətlər inkişaf etdirilməsə, musiqi mədəniyyətimizdə ənənələr davam etdirilməsə irəliyə gedə bilmərik. Ölkəmizə rəhbərlik etdiyi dövrlərdə ulu öndər bu istiqamətdə mühüm tədbirlər həyata keçirib. Görkəmli dövlət xadimi Heydər Əliyev "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Fərman imzaladıqdan sonra onlarla istedadlı gənc musiqiçimiz fəxri adlara, Prezident təqaüdünə layiq görülüb. Onlara diqqət və qayğı göstərilməsi bu gün ölkəmizdə dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bütün bunlar ulu öndər tərəfindən yaradılmış gözəl ənənələrin davamıdır.

Vurğulanıb ki, muxtar respublikamızda istedadlı gənc musiqiçilərin hərtərəfli diqqət və qayğı ilə əhatə olunmaları da bunun bariz ifadəsidir. Bu gün istedadlı gənclərin adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılır, onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi təqaüdünə layiq görülürlər.

Bildirilib ki, musiqimizin inkişafı istiqamətində görülən tədbirlər uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini də əhatə edib. Son illər 23 uşaq musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilib. Ötən il Naxçıvan şəhərinin Qaraçuq və Culfa rayonunun Bənəniyar kəndlərində uşaq musiqi məktəbləri üçün yeni binalar qapılarını müəllim və şagirdlərin üzünə açıb. Naxçıvan şəhərindəki 2 nömrəli, Sədərək Rayon Uşaq Musiqi məktəbləri üçün də yeni bina inşa olunub, musiqi təhsilinin nümunəvi təşkilinə hərtərəfli şərait yaradılıb.

Uşaqların istedadının üzə çıxarılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 19 aprel tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyasının da mühüm rolu vardır. Filarmoniyada xalq çalğı alətləri, kamera orkestri, mahnı və rəqs ansamblı, xor kollektivi fəaliyyət göstərir. 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində konservatoriyanın açılması isə ali təhsilli gənc musiqiçi kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Sonra nazirliyin əməkdaşı Pərvin Həsənovun "Azərbaycan musiqi mədəniyyətinin inkişafında gənclərin rolu" mövzusunda çıxışı olub. Çıxışda müxtəlif illərdə gənc Azərbaycan bəstəkarlarının uğurlarından geniş söhbət açılıb.

Dəyirmi masada iştirak edən Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilov, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Leyla Əlimərdanova, Naxçıvan Şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru Səməd Əsgərov, Şərur, Kəngərli, Sədərək Rayon Mədəniyyət və Turizm şöbələrinin müdirləri Əli Qəmbərov, Məhərrəm Əliyev, Rəşad İsmayılov gənclərin musiqi təhsili ilə bağlı bir sıra məsələlərə toxunmaqla bərabər, milli musiqimizin təbliği yollarından da bəhs ediblər. Çıxışlarda qeyd olunub ki, gənclərin estetik zövqünün formalaşmasında musiqinin böyük rolu vardır. Milli musiqimizi geniş təbliğ etmək bu gün xüsusilə vacibdir. Yad musiqilər gənclərin dünyagörüşünə mənfi təsir göstərir. Buna görə də musiqi məktəblərində milli və başqa dünya musiqisini təbliğ etmək, gəncləri belə musiqilərin ruhunda tərbiyə etmək qarşıda duran başlıca vəzifələrdən biridir.

**Əli RZAYEV**

# Milli mətbəximizin qış təamları

***Əhalinin aparıcı təsərrüfat sahələrindən biri tarixən maldarlıq olduğundan insanların qidaya olan tələbatının bir hissəsi maldarlıq (ət, süd) məhsulları ilə ödənilib. Buna görə də xalqımızın mətbəxində bu məhsullar ayrıca yer tutub. Onu da qeyd edək ki, bütün növ məhsullar kimi, heyvan mənşəli məhsullar da mövsümə uyğun istifadə edilib. Mövsümdən asılı olaraq yazın axırı, yay və payız aylarında daha çox ətdən təzə halda, qış və yazın əvvəllərində isə ətdən qovurulmuş halda istifadə olunub.***

Əhali ət yeməklərindən yayda az, qışda isə çox istifadə edir. Ət tədarükü qovurma, qaxac, cızdıq etmə və sair üsulla həyata keçirilir. Qışda daha çox işlədilən ət məhsullarından biri qovurmadır. Qış üçün ət tədarükü payızın son aylarından görülür. Çünki qovurmalıq üçün bəslənilən heyvanlar ilin bu dövründə, el arasında deyildiyi kimi, “özünü basmağa” hazır olur. Ona görə də qovurmalıq heyvanları payızın son aylarında kəsirlər. Çalışırlar ki, qovurma yaza qədər qalsın. Bu dövrə qədər qovurmasını qurtaranlar haqqında deyərdilər:

*Çillə çıxıb, bayrama bir ay qalıb,*
*Pinti arvad qovurmasın qurtarıb.*

***Qovurmanın hazırlanması.*** Qovurmalıq üçün bəslənilmiş heyvanlar (qovurmalıq heyvan, əsasən, xırdabuynuzlu heyvanların erkəyindən hazırlanır) kəsilib bir gün saxlanılır. Deyirlər ki, bu müddətdə ətin suyu çəkilir. Bu, ətin yaxşı doğranmasına, sümüyünün ovulmamasına kömək edir. Ət tikələri eyni böyüklükdə olmaqla doğranılır. Əgər ət balaca doğranılarsa, həm qızaran zaman çox quruyur, həm də bişirilən zaman sümükləri ovulur, böyük doğranılarsa, onda tikələr yaxşı qızarmır. Doğranmış ət qaynayan suya töküb pörtlədilir. Üç aşsüzən doğranmış ətə 5 litr su vurulur. Ət pörtlədilən zaman suya duz atılır. Pörtlədildikdən sonra ət başqa bir qazanda qızardılır. Ət qızaran vaxt çoxlu duz əlavə edilir ki, sonra göyərməsin (xarab olmasın). Ətin qızardılma prosesi başa çatdıqdan sonra küpələrə yığıb yağını ətin üzərinə tökürlər. Əgər yağ ətin üzərinə çıxmazsa deyirlər ki, “ət özünü basmadı”. Bu vaxt əlavə yağ əridib ətin üstünə tökürlər ki, yağsız qalan hissəsi xarab olmasın.

Bişirilən qovurmanın suyuna Naxçıvan bölgəsində “təngov”, “şorsu”, “işgənə”, “cıqata” deyilir. Qovurmanın suyundan qohumlara, qonşulara pay qoymaq adəti də mövcuddur. Bəzi bölgələrdə (xüsusən Ordubadda) qoyulan qovurma suyunun əvəzinə corab payı qoyub geri qaytararlar. Küpənin ağzı sırağ (nazik dəridən kəsilmiş) və ağac lifi ilə bağlanır. Qovurma bir qayda olaraq böyük çillədən sonra açılır. Bu da onunla əlaqədardır ki, qovurmadan bir hissə də yaza saxlanır, pencər bişirilərkən istifadə olunur. Bundan əlavə, bölgədə qarın, bağırsaq qovurmaları da geniş şəkildə yayılıb.

***Qaxac.*** Təzə soyulmuş heyvan bir neçə saat açıq havada saxlanılır, ətin suyu çəkilir. Sonra döş və quyruq hissəsi ayrıca kəsilib qaxac edilir. Qalan hissəsi möhkəm duzlanır, yerdə bir neçə gün saxlanılır, sonra “qaxac ağacı”ndan asılır. Kifayət qədər duzlanmış ət orada bir neçə ay qalır, “duz onu tam yeyəndən sonra” istifadə edilir. Bir məsələni də qeyd edək ki, qaxac, adətən, kölgədə qurudulur. Qədim mənbələrdə yazılır ki, türklər əti qurudub qaxac şəklində saxlar və çinlilərə satardılar.

***Cızdıq.*** Qış tədarükü kimi cızdıq da hazırlanır. Bunun üçün qoyun və yaxud qoç quyruğunu balaca doğrayıb qazanda tam qızaranadək qovururlar. Sonra onun yağını süzüb küpələrə yığır, cızdığı da ayrıca bir qaba doldururlar. Qışda cızdıq həm adi halda isidilib yeyilir, həm də sulu xörəklərin hazırlanması zamanı istifadə edilir.

Naxçıvan əhalisi minilliklər boyu qışa tədarük prosesində süd-ağartı məhsullarına xüsusi yer verib. Bunlardan yağ, pendir, qurut, cortdan, şor, lor və sairi misal göstərmək olar.

Süd məhsulları içərisində pendir el arasında süfrənin “şahı” adlanır. Bölgədə üzlü, üzsüz, qaşar, sərmə, axtarma, ovma, döymə, motal kimi pendir növləri vardır. Pendir daha çox qoyun südündən hazırlanır. İnək, camış südündən pendir hazırlamazlar. Xalq arasında belə inam var ki, əgər inək, camış südündən pendir edilsə, bu heyvanların damazlığının kəsilməsinə səbəb olar. Qoyundan pendir, inəkdən yağ, camışdan qatıq deyib babalarımız.

Pendir hazırlamaq üçün görülən bu iş heyvan sağılmağa başladığı dövrdən həyata keçirilir. Ancaq təcrübəli çobanlar deyirlər ki, yaxşı pendir tutmaq üçün “Quyruq doğdudan”, yay yarı olandan sonra bu işə başlanılmalıdır. Xalq arasında adı, dadı dillər əzbəri olan arxac, qaşar, axtarma pendirləri daha çox ilin bu dövründən sonra tutulur. El arasında bu cür pendirlərə “payız pendiri” deyirlər. İlin bu dövründə süd yağlı olduğundan ondan hazırlanan pendirlər daha dadlı olur.



Pendir hazırlamaq üçün mayadan (pendir mayası) və təbii halda bitən dələmə otundan istifadə edilir.

***Axtarma pendir.*** İl yarı olandan sonra heyvanı artıq sağmazlar. Yaylaqda olan çobanlar isə yağlı, südlü qoyunları seçib (pendirin adı da buradan yaranıb) sağır, südündən pendir hazırlayırlar.

***Döymə, ovma pendir.*** Adi pendir hazır olduqdan, yəni turşusunu alıb bərkiyəndən sonra onu pendir daşının üstündə döyür və yaxud əl ilə ovurlar. İçərisinə tərxun, kəklikotu vurub, küpələrə yığıb ağzına tənzif, tut yarpağı, sələ (sələ qoyun dərisindən hazırlanır) qoyub bağlayırlar. Sonra küpəni tərsinə çevirib torpağa basdırırlar. Arxa tərəfi bir az eşikdə qoyulur ki, hava keçsin (dəysin). Əgər pendirə hava dəyməsə və ya suyu süzməsə, onda xarab olar.

***Motal pendiri.*** Pendir motalın (heyvan dərisindən xüsusi üsulla hazırlanır) yunlu hissəsinə (yunu kəsib bir santimetr saxlanılır) yığılır, torpağa basdırılıb qış üçün saxlanılır. Pendir motalda göyərməsin (xarab olmasın) deyə aradabir o biri tərəf üstə çevirirlər. Pendir motalda saxlandığı üçün ad (motal pendiri) buna uyğun verilib. Şor, pendir saxlamaq üçün xırdabuynuzlu heyvanların dərisindən hazırlanmış çılğı adlanan məişət əşyasından da istifadə olunub.

***Qurut.*** Süd məhsulları içərisində qış üçün tədarük edilənlərdən biri də qurutdur. Qurut almaq üçün nehrədə yağı çalxalayandan sonra onun ayranını götürüb içərisinə çalınmış qatıq (qatıq gərək elə çalınsın ki, içərisində düyün olmasın) qatılır. Ocağın üstünə qoyulub içərisinə duz atıb çürüdülür. Bu zaman su hissəsi üzə, şoru isə qazanın dibinə çökür. Ocaqdan götürüb süzmək üçün torbalara tökülür. Torbanın üzərinə daş qoyulur ki, süzmə prosesi axıra qədər getsin. Süzülüb qurtardıqda çürümüş şoru ləyənlərə tökür, sonra yumrulayıb qurudurlar. Bu vaxt onun yaxşı qurumasına çalışmaq lazımdır, çünki yaxşı qurumazsa, içəridən xarab olar. Bunun üçün orta hissəsindən deşilir. Quruduqdan sonra torbalara yığıb qış üçün saxlanılır. Qurut qatıqdan da olur. Ayrandan qurut duz vurmadan hazırlanarsa, yaş vaxtına cortdan deyilir. Qışda qurutdan qurutaşı, kələci (qurut kələcisi) bişirilir. Qurutu bişirmək üçün saxsı qablarda (əngənəkdə) əridirlər. Qurut bişiriləndə içərisinə qovurma, soğan, düyü, yarma və sair də vururlar. Naxçıvanda xalq arasında “Allah bizi yayda ayransız, qışda qurutsuz qoymasın” deyimi mövcuddur.

**Asəf ORUCOV**
***tarix üzrə fəlsəfə doktoru***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 23 dekabr 2016-cı il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15%) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 0,0902 hektar torpaq sahəsində yerləşən 4 girişli, 3 mərtəbəli, 1797,4 kv.m ümumi, 913,1 kv.m əsas, 884,3 kv.m köməkçi sahədən ibarət qeyri-yaşayış binası (“Qızıl Dağ” kiçik müəssisəsi) | Naxçıvan şəhəri, Nizami 61A | 2.652.000 | 2.254.200 | 132.600 |
| 2. | Ümumi sahəsi 257,0 kv.m, bütün növ əmlak və avadanlıqları olan qeyri-yaşayış sahəsi | Naxçıvan şəhəri, Nizami 41 | 1.125.000 | 956.250 | 56.250 |
| 3. | 5 mərtəbəli binanın 2-ci giriş, 3-cü mərtəbəsində 85,64 kv.m ümumi, 61,71 kv.m yaşayış, 23,93 kv.m köməkçi sahədən ibarət 5 otaqlı mənzil | Naxçıvan şəhəri, Atabəylər məhəlləsi 8 | 75.000 | 63.750 | 3.750 |
| 4. | 0,0448 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 73,22 kv.m ümumi, 45,78 kv.m köməkçi sahədən ibarət 3 otaqlı fərdi yaşayış evi | Naxçıvan şəhəri, “6-cı” məhəllə, ev 73 | 70.000 | 59.500 | 3.500 |
| 5. | 5 mərtəbəli binada 55,84 kv.m ümumi, 37,92 kv.m yaşayış, 17,92 kv.m köməkçi sahədən ibarət 3 otaqlı mənzil | Naxçıvan şəhəri, Atabəylər məhəlləsi 8 | 68.000 | 57.800 | 3.400 |
| 6. | Ümumi sahəsi 31,8 kv.m olan 15,8 kv.m əsas, 16,0 kv.m köməkçi sahədən ibarət qeyri-yaşayış sahəsi (cildləmə sexi) | Naxçıvan şəhəri, Nizami küçəsi, bina 41, 1-ci mərtəbə | 30.000 | 25.500 | 1.500 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh “Kapital Bank” Naxçıvan Muxtar Respublikası Baş İdarəsindəki AZ87AİİB45090249443100007500 nömrəli hesaba 19 dekabr 2016-cı il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:
- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 23 dekabr 2016-cı il tarixdə, saat 11[00]-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Basketbol çempionatında növbəti turun oyunları keçirilib

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi basketbol üzrə muxtar respublika çempionatının yüksək və I dəstənin növbəti oyunları keçirilib.***



Naxçıvan Muxtar Respublika çempionatının yüksək dəstəsinin ilk iki turunu qələbə ilə başa vuran “Ordubad” komandası bu turda da uğura imza atıb. Səfərdə “Şərur” komandasının qonağı olan ordubadlı basketbolçular meydanı 54:26 hesablı qələbə ilə tərk ediblər.

Heç kimin gözləmədiyi halda bu tur “Naxçıvan” komandası məğlubiyyətlə üzləşib. Culfalı həmkarları qarşısında 20 top (63:43) fərqi ilə məğlubiyyət onların turnir cədvəlindəki mövqelərini də dəyişib.

I dəstədə isə “Şahbuz” komandası liderliyi qoruyub saxlaya bilib. Bu turda onlar doğma arenada Sədərək basketbolçularını sınağa çəkiblər və 45:34 hesablı qələbəyə sevinibləр. “Lokomotiv” isə cari mövsümdə ikinci qələbəsini qazanıb. “Kəngərli” komandası ilə görüşdə 2 xalı bayram etmək onlar üçün heç də çətin olmayıb – 70:22.

*Yüksək dəstə*

| S | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | “Ordubad” | 3 | 3 | 0 | 135-85 | 6 |
| 2. | “Culfa” | 3 | 2 | 1 | 161-118 | 5 |
| 3. | “Naxçıvan” | 3 | 2 | 1 | 182-129 | 5 |
| 4. | “Babək” | 3 | 1 | 2 | 78-108 | 4 |
| 5. | “Şərur” | 4 | 0 | 4 | 95-211 | 4 |

*I dəstə*

| S | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | “Şahbuz” | 3 | 3 | 0 | 142-105 | 6 |
| 2. | “Sədərək” | 4 | 2 | 2 | 105-118 | 6 |
| 3. | “Lokomotiv” | 3 | 2 | 1 | 144-96 | 5 |
| 4. | “Naxçıvan” Universiteti | 3 | 1 | 2 | 109-101 | 4 |
| 5. | “Kəngərli” | 3 | 0 | 3 | 58-128 | 3 |

**Qeyd:** S – sıra, O – oyun, Q – qələbə, M – məğlubiyyət, T/F – top fərqi, X – xal.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
**Baş redaktor:**
TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1050. Sifariş № 912**